**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin maddi-texniki bazasının gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 avqust 2012-ci il.*